Azadlıq Radiosu

AZƏRBAYCAN XƏBƏRLƏRİ

# Azərbaycanda internat məktəbləri azalıb

indicə




Uşaq Evlərinin 29 ildir dəyişməyən qida rasionu (Arxiv. 2023)

Azərbaycanda son illər sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi təhsil müəssisələrinin sayında azalma var.

Bu barədə məlumat Dövlət Statistika Komitəsinin "Azərbaycanda uşaqlar" adlı son statistik məcmuəsində öz əksini tapıb.

Məcmuədə bildirilir ki, **2005/2006 tədris ilində 21 olan belə müəssisələrin sayı 2025/2026-cı illərdə 16-ya enib. Həmin illər ərzində orada təhsil alan şagirdlərin sayı da 6 min 402-dən 4 min 312-ə düşüb.**

Amma sağlamlıq imkanı məhdud uşaqların ümumi dəqiq statistikası açıqlanmayıb. Ona görə onların nə qədərinin təhsildən kənarda qaldığını müəyyən etmək çətindir.

Bununla belə, bu tip məktəblərin tərkibinə nəzər yetirəndə bəlli olur ki, bağlananlar əsasən internat məktəbləridir.

Son illər Azərbaycanda həm doğuşda, həm də ümumtəhsil müəssisələrin sayında azalma var.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur